**Berlin əyaləti qaçqınlar və sığınacaq axtaranlar sığınacağına xoş gəlmişsiniz!**

Bu daxili nizamnamə, sığınacaqda birlikdə yaşamanı planlaşdırmaq üçün tənzimlənmiş qaydalardan ibarətdir, ki eyni dərəcədə bütün burada yaşayan yaxud çalışan bütün insanlar, o cümlədən, görüşə gələnlərə aiddir. Məqsəd, sayğı dolu və şiddətsiz bir birgə yaşamanı mümkün etməkdir.

Almaniyada bütün insanlar qanun qarşısında bərabərdir. Bunun mənası budur ki heç kəs cinsi, mənşəi, dili, vətəni, inamı, dini yaxud siyasi baxışları, cinsi meyli, yaşı yaxud irqi nədənlərlə məhrum edilməməlidir və üstün tutulmamalıdır. Irqçi səbəblər, insanlar yalnız xarici xüsusiyyətlərinə görə, məsələn, dərilərinin rənginə görə ayrıseçkiliyə məruz qaldıqlarında mövcuddur. Heç kəs əngəlliliyinə görə məhrum edilməməlidir.

Xüsusilə qadınlar və kişilərin hüquqi bərabərliyi Almaniyada dövlət tərəfindən zəmanət verilmiş prinsiplərdəndir. Bunun mənası budur ki qadınlar və kişilərin həyatın bütün sahələrində bərabər hüquq və vəzifələri vardır. Buna görə, heç kəs qadın vəya kişi olduğuna görə məhrum edilməməlidir.

Özlərini eyni cinsə yaxud hər iki cinsə meyilli hiss edən insanlar (qey, lezbiyan, ikicinsli) həmçinin özlərinə heç bir cins təyin edə bilməyən yaxud onlarda biyolojik cins hiss edilən cinslə uyğun gəlməyən insanlar (interseksual vəya transseksual) üçün Amaniya dövləti bütün başqa insanlarla bərabər hüquq zəmanət edir və onlar cinsi meyllərinə görə yaxud cinsi identikliklərinə görə, heç bir şəkildə, məhrum edilməməlidirlər. Ona görə, bu qrup insanlara aid olan sakinlərlə sayğı ilə davranılmaq gərəkdir və onlar sığınacaqda heç kəsin tərəfindən düşmənliyə yaxud başqa şəkildə ayrı-seçkiliyə məruz qalmamalıdırlar.

Xidmət təminatçısı diqqət göstərməlidir ki sığınacaqda daimi yaxud müvəqqəti olaraq yaşayan bütün insanlar bu daxili əsasnaməyə riayət etsinlər.

## Maddə 1 Ev sahibi haqqı

1. Ev sahibi haqqı buna qərar vermək haqqıdır ki kim sığınacağa və mülkiyyətə girə bilər və orada qala bilər və sakinlər, xidmət təminatçısının personalı və əmniyyət məmurları, görüşə gələnlər, könüllü köməkçilər və əməkdaşlıq iştirakçıları necə davranmalıdırlar.

Xidmət təminatçısı Berlin əyaləti tərəfindən ev sahibi haqqını qəbul edir və daxili əsasnəməni icra edir. Bu işdə əmniyyət məmurları ona yardım edirlər.

2. Sakinlərin şəxsi sahələri, sakinlərin özləri arasında və xidmət təminatçısı personalı və əmniyyət məmurları tərəfindən qorunmalıdır.
Təmir öçün baş çəkmələr və xidmət təminatçısı tərəfindən müntəzəm yoxlamalar əvvəlcədən xəbər verilməlidir və sakinlərlə razılaşılmalıdır. Təsadüfi yoxlamalar əvvəlcədən xəbər verildikdən sonra, sakinlərin razılaşması və iştirakı ilə həyata keçirilə bilər.
Otağa girmədən öncə qapı döyülməlidir və otaq sahibinin icazəsi gözlənilməlidir.

Xidmət taminançısı və əmniyyət personalı, həmçinin məsul intizam rəsmiləri, sakinlərin icazəsi olmadan otağa girə bilməzlər, təhlükəli vəziyyətlər istisna olmaqla. Təhlükə, xüsusilə insanlara və ya əmlaka zərər vermə ehtimalı olduqda mövcuddur. Evlərdə olduğu kimi, Ana Yasanın 13-cü maddəsinə əsasən qaçqınların qəbul mərkəzləri və ümumi sığınacaqlarında, şəxsi sahənin qorunması tətbiq olunur. Bu qorunma yalnız qanuni əsaslarla məhdudlaşdırıla bilər. Belə bir



.

qanuni əsas, İqamət Qanununda mövcuddur. Ancaq yoxlamalar yalnız məhkəmə qərarı ilə mümkündür.

Sakin şəxs olmadan otağa girdikdən sonra, otaqda və müdiriyyətdə, dəlillər yazılı olaraq geridə buraxılmalıdır.

3. Alış-veriş və hər növ ticarət və həmçinin ticari məqsədlərlə reklam etmək yasaqdır.

4. Çantalar və şkafları yoxlamaq yalnız polis tərəfindən həyata keçirilməlidir, əlbəttə bunun üçün bir qanuni əsas varsa.

## Maddə 2 Tətbiq sahəsi

Bu daxili əsasnamə sığınacağın bütün yerlərində tətbiq edilə bilər.
Bu əsasnaməyə riayət etmək bütün sakinlər, könüllü köməkçilər və əməkdaşlıq iştirakçıları həmçinin xidmət təminatçısının personalı və əmniyyət məmurları üçün vacibdir.

## Maddə 3 Sakinlər

1. Bu sığınacaqda qalmaq haqqı əldə etmənin şərti, bir etibarlı xərcləri qəbul etmə bəyannaməsi yaxud Qaçqınlar İşləri İdarəsinin (LAF) təyinidir.

2. Müvəqqəti qalma, bir daimi qalma haqqına dəlil ola bilməz.

3. Hər sakin bir şəxsiyyət vəsiqəsi alır ki müdiriyyət personalı vəya əmniyyət məmurları tərəfindən istənildiyində göstərilməlidir və şəxs həmişə onu özü ilə daşımalıdır.

4. Sakinlərin sığınacaqda birgə yaşamanı planlaşdırmada fəal iştirakı açıqca istənilir və xidmət təminatçısı yaxud sığınacağın müdiriyyəti tərəfindən, sakinlər şurası yaxud başqa əməkdaşlıq formaları ilə, dəstəklənməlidir.

5. Bütün sakinlər elektrik, su və istilik enerjidən qənaətlə istifadə etməlidirlər.

6. Xarici antenaların quraşdırması yalnız əvvəlcədən müdiriyyətə xəbər verildikdən sonra və Berlin əyalətinin keçərli qanunlar və qaydaları nəzərə alınaraq mümkündür.
7. Sığınacaqda ortaq məkanlar da sakinlərin istifadəsi üçün mövcuddur ki onlardan istifadə etmək müəyyən insanlar qruplarına məhdudlaşdırıla bilər. Xidmət təminatçısı istifadə saatlarını təyin edər. Ortaq məkanlar, görüşlər, idman fəaliyyətləri, birlikdə televiziya izləmək və ya təlim kursları kimi müxtəlif yollarla istifadə edilə bilər. Daha çox məlumat üçün xahiş edirəm sığınacağın əməkdaşları ilə əlaqə saxlayın.

8. Bir gündən artıq müvəqqəti yoxluq halda (xəstəxanada yatmaq, xarici idarələrdə görüşlər yaxud başqa mühüm dəlillərə görə) və sığınacağ həmişəlik tərk edildikdə, sığınacağın müdiriyyəti ən qısa zamanda xəbərdar olunmalıdır. Əgər yoxluq əvvəlcədən planlaşdırıla bilərsə, sığınacağın müdiriyyəti mümkün qədər tez xəbərdar olunmalıdır. Şəxsin özü tərəfindən baş verən xəbər verməmə halları, yoxluğun üçüncü günündən sonra şəxsin sığınacaqdakı mövcud yerini əldən verməyə səbəb ola bilər.

9. Qəbul mərkəzi olmayan sığınacaqlar sakinləri üçün aşağıdakı qaydalar keçərlidir:



.

Sığınacaq planlaşdırımış olaraq üç gündən artıq vacib səbəblərdən tərk edilirsə (məsələn xəstəxanada yatmaq, rəsmi orqanlarda görüş, sığınacaqdan kənarda izinli gəlirli iş, toy, dəfn və s. kimi xüsusi ailə tədbirlərində iştirak), sakinin sığınacaqdakı yeri saxlanıla bilər. Bunun üçün sosial xidmətlər verən orqanın razılığı lazımdır (LAF, iş mərkəzi, rayon idarəsi).

Bu xidmətləri LAF-dan alan sakinlər üçün, yuxarıda göstərilən səbəblərdən sığınacaqda olmamaq, hər təqvim ilində 20 günə qədər sakinin sığınacaqda yerini əldən vermədən və başqa bir sığınacağa köçməyə ehtiyac olmadan, qanuni başqa bir əsas olmadığı təqdirdə icazə verilə bilər. Xüsusi müstəsna hallarda (məsələn xəstəxanada daha uzun qalmaq) 20 gündən çox müddətə də icazə verilə bilər.

Yoxluq üçün əvvəlcədən LAF-da müraciət edilməlidir.

İcazəli yoxluq üçün müraciət etmək üçün hansı idarəyə müraciət edəcəyinizi bilmirsinizsə, sığınacaqdakı əməkdaşlar sizə kömək edə bilər.

10. Böhranlı durumlarda (məsələn ciddi xəstəlik, hədələmə yaxud bir şiddətli hücum) hər zaman xidmət təminatçısı yaxud əmniyyət məmurlarından bir məsul şəxs sakinlərin xidmətindədir. Onlar təcili yardım xidmətini də çağıra bilər. Sığınacağın əməkdaşları ayrıca sakinləri xüsusilə stresli hadisələrin öhdəsindən gəlməyə dəstək verməyə çalışacaqlar. Başqa suallar və məsələləri, iş saatlarında xidmət təminatçısına təqdim oluna bilər yaxud LAF şikayətlər bölməsinə göndərilə bilər (e-poçt: unterkunft-qs-beschwerde@laf.berlin.de).

## Maddə 4 Başqa şəxlər

1. Sakinlər qonaqlarını otaqlarında qəbul edə bilərlər. Ziyarət qaydalarının, xüsusən ziyarət vaxtlarının təfərrüatları, LAF ilə məsləhətləşərək sığınacaq qaydaları çərçivəsində sığınacağın müdiriyyəti tərəfindən tənzimlənir. Sığınacağın müdiriyyəti tərəfindən sığınacaqda tətbiq olunan ziyarət qaydaları barədə sakinlərə məlumat veriləcəkdir. Bu məlumatlar, ziyarətlərin yalnız gecə istirahət saatları xaricində icazə verildiyi və ya qonaqların müəyyən şərtlər daxilində gecə saatlarında qala bilmələrini də əhatə edəcəkdir.

2. Sakinlərin qonaqları, həmçinin könüllü köməkçilər və əməkdaşlıq iştirakçıları bir şəkilli vəsiqə ilə (pasaport, şəxsiyyət vəsiqəsi, xəstəxana vəsiqəsi, tələbə vəsiqəsi vs.) özlərini tanıtdırmalıdır, sığınacaq sahəsinə girmədən öncə qəbul otağında qeydiyyatdan keçməlidir və çıxışda qeydiyyatlarını ləğv etməlidirlər. Onlar bir qonaq vəsiqəsi alırlar. Qonaqların, könüllü köməkçilərin və əməkdaşlıq iştirakçıların xidmət təminatçısı vəya əmniyyət məmurları tərəfindən şəxsi məlumatlarının yığılması və işlənməsi yasaqdır.

3. Sığınacaqda icazəsiz qalan şəxslər, qeyri-qanuni giriş törətmişlər və rəsmi şikayəti gözləyə bilərlər. Köməkçi və qonaq saatları xüsusi olaraq bildirilir və riayət edilməlidir.

## Maddə 5 Təmizlik və intizam

1. Alkoqolun istifadəsi sığınacağın gəliş-gediş nöqtələrində və açıq yerlərində yasaqdır.

2. Ümumiyyətdə, siqaret çəkmək sığınacaqda yasaqdır; bu yasaq qəlyan və e-siqaretləri də ehtiva edir. Sakinlər yalnız binanın eşiyində müəyyən olan siqaret çəkmə yerlərindən istifadə etməlidirlər. Sakinlər bu yerləri özləri təmizləməlidirlər.



.

3. Otaqlarını, o cümlədən otaqların pəncərələrini, təmizləmək üçün, sakinlər özləri məsuldur. Otaqların kifayət qədər havalandırılması hətta soyuq fəsillərdə vacibdir (pəncəni davamlı açıq buraxmağın yerinə onu növbə ile açıb-bağlamaq tövsiyə olunur).

4. Sığınacaq, otaqlar və yatmaq sahələri, həmçinin ortaq istifadə olunan yerlər və otaqlar (misal üçün ortaq mətbəxlər və ortaq sanitariya bölmələri) həmişə təmiz durumda tərk edilməlidir. Sakinlərin özləri tərəfindən baş verən çirklənmələr dərhal və onların özləri tərəfindən aradan qaldırılmalıdır. Oyun yerləri (məsələn oyun otağı yaxud ev işləri otağı) təmiz durumda tərk edilməlidir.

5. Sığınacağın müdirriyyəti ilə məsləhətləşərək sakinlər öz ləvazimatlarını otaqlarına əlavə edə bilərlər. Bu durum, əgər quraşdırılmış cihaz qanuni qaydaların pozulmasına, istifadə edilə bilən sahənin təsirli səviyyədə azalmasına, yaxud başqa sakinlərin məhrum olunmasına səbəb olsa, keçərli deyil. Hər halda, əlavə edilmiş və quraşdırılmış cihazlarla sakinlər məsuliyyət daşıyır. Bu məsuliyyət xüsusilə sığınacağı tərk etdikləri zaman cihazları aradan qaldırmaqdan da ibarət olur.

6. Sakinlərin özlərinə aid olan xalçalar, döşəməyə bağlanmamalıdır. Həftədə bir dəfə sakinlər xalçaları tozsoranla təmizləməli və yuvarlamalıdırlar və döşəməni nəm dəsmal ilə silməlidirlər. İldə bir dəfə xalçalar şampunla yuyulmalıdır (yoluxmadan qorunma qaanununun 36-cı maddəsinə əsasən).

7. Yataq çərçivələri yatmaq üçün istifadə edilmirsə, döşəklər daimi olaraq yerə qoyulmamalı, və kifayət qədər havalandırılmanı təmin etmək və otaqların tez boşaldılması lazım olan təcili yardım vəziyyətində qaçış yollarına mane olmamaq üçün, gün ərzində yataq çərçivələrində saxlanılmalıdır. Yerdən qızdırılan sığınacaqlarda döşəklər yerə qoyulmamalıdır.

8. Sanitariya sistemi borularının tıxanmasına mane olmaq üçün, tullantı su kanalına hər hansı tullantı, yemək qalığı yaxud bənzər şeylər daxil edilməməlidir. Tualetlər və mətbəx çanaqlarına hər hansı ev və mətbəx tullantıları, uşaq əskiləri, gigiyena ləvazimatı və bənzər şeylər daxil edilməməlidir. Bu tullantılar, onlar üçün təyin edilmiş tullantı qablarına atılmalıdır.

9. Sığınacaq cihazlarından diqqətlə istifadə olunmalıdır. Bütün sakinlər sığınacağa və binaya yetirilmiş xəsarətləri özləri aradan qaldırmalıdırlar. Xəsarətlər dərhal xidmət taminatçısı personalına bildirilməlidir. İcazəsiz mıx, çəngəl, vint və bənzər şeylərin çalınması və bağlanması yasaqdır. Ancaq, divara əlavə olunanlar sığınacağın müdiriyyətindən istənilə bilər və təsdiq edildiyi təqdirdə qapıçı tərəfindən həyata keçiriləcəkdir.

10. Yoluxmadan qorunma qanununun 36-cı maddəsinə əsasən - gigiyena planı - tullantılar ayrılmalıdır, ağzı-bağlı kisə yaxud qablarda yığılmalıdır və hər gün atılmalıdır.

11. Bütün sakinlər sığıcanağa gəldiklərində yataq ləvazimatları, əl-üz dəsmalları və qab-qacaq alırlar. Əl-üz dəsmalları həftəlikdir, yataq ləvazimatları ən geç hər üç həftədən bir, ən az 60 dərəcə su ilə yuyulmalıdır (yoluxmadan qorunma qanununun 36-cı maddəsi).

12. Sakinlər paltarlarını özləri yuyurlar.

a. Yataq ləvazimatlarını yumaq üçün paltar yuyan maşın pulsuz olaraq mövcuddur. Bu cihazlardan, istifadə təlimatı əsasında və diqqətlə istifadə olunmalıdır və yalnız paltar yuyan maşın üçün təyin olunmuş yuyucu vasitələr istifadə olunmalıdır.

b. Paltarları qurutmaq üçün paltar qurutma maşını pulsuz olaraq mövcuddur. Bu cihazlardan, istifadə təlimatı əsasında və diqqətlə istifadə olunmalıdır. Kifin əmələ



.

gəlməsinin qabağını almaq üçün, sakinlərin otaqlarında paltarları qurutmaq yasaqdır. Balkonlarda mövcud paltar qurutma dayaqları ilə qurutmaq mümkündür.

c. Sakinlər ortaq paltar yuyan maşınlardan istifadə ilə əlaqəli təhlükəyə görə özləri məsuldur.

d. Xidmət təminatçısı yaxud Berlin əyaləti xəsaratlər yaxud oğurluğa görə hər hansı məsuliyyət daşımır.

e. Suallarla əlaqəli xidmət təlimatçısının personalına müraciət etmək mümkündür.

13. Ev heyvanlarını saxlamaq yasaqdır.

14. Həşəratın hücumu (misal üçün taxtabiti, bit, siçan) göründüyü zaman dərhəl xidmət təminatçısının əməkdaşlarına bildirilməlidir.

## Maddə 6 Səs-küydən qoruma

1. Ümumiyyətdə sakinlər səs-küy qaldırmaqdan çəkinməlidir. Sakinlər qonşuları və otağın obiri sakinlərinin vəziyyətlərini nəzərə almalıdırlar. Musiqi səsi yalnız otaq səviyyəsində olmalıdır.

2. Səssiz saatalar, gecələr saat 22-dən səhər 6-dək davam edir. Bu saatlarda hər hansı uca səsli işlər yaxud fəaliyyətlər həyata keçirilməməlidir. Otaq səviyyəsində səsli fəaliyyətlərə icazə virilir. Bazar və tətil günlərində yüksək səsli fəaliyyətlər və işlərə ümumiyyətdə icazə verilmir. Səs istehsal edən cihazlar və musiqi alətlərindən hər zaman yalnız otaq səviyyəsində səslə istifadə edilməlidir.

3. Pəncərə açıqkən, həmçinin açıq yerlərdə danışıqlar ve mobil telefon söhbətləri, elə keçirilməlidir ki qonşu evlərin sakinlərini həddən artıq yüksək səslə narahat etməsinlər.

4. Normal uşaqlar səsi qəbul edilməlidir. Uşaqların oyun ehtiyacları hər kəs tərəfindən dözülməlidir. Amma valideynlər diqqət etməlidir ki uşaqlar da başqa insanların (sakinlər, qonşular vs.) durumlarını nəzərə alsınlar.

## Maddə 7 Uşaq arabaları, velisopedlər, yerimə stulları və digər əşyaları park etmək

1. Uşaq arabaları, velisopedlər, yerimə stulları və digər əşyaları pilləkən zolağında və dəhlizlərdə park etmək yasaqdır. Müəyyən edilmiş bütün ehtiyat çıxış və xilas yolları hər gün və hər gecə boş saxlanmalıdır.

2. Velosipedlər, uşaq arabaları və yerimə stulları yalnız müəyyən edilmiş hissələrdə park edilməlidir.

3. Park edilmiş velosipedlər, yerimə stulları vs. üzrə hər sakin özü məsuldur. Bununla əlaqəli, xidmət təminatçısı yaxud Berlin əyaləti hər hansı məsuliyyət qəbul etmir.

## Maddə 8 Təhlükəsizlik



.

1. Bütün sakinlər müvəzzəfdirlər, xidmət təlimatçısından yanğın durumlarla əlaqəli davranışları öyrənsinlər və sığınacaqda keçirilərən yanğın təhlükəsizlik məşqlərdə iştirak etsinlər.

2. Yanğın hadisələrində, qurtarıcı qruplar və yanğınsöndürənlər qrupu personalının göstərişləri həmçinin "yanğın durumlar davranışları" cədvəlinin göstərişləri yerinə yertirilməlidir. Sığınacağın xarici sahəsində bir toplanış məntəqəsi vardır. Müəyyən edilmiş ehtiyat çıxış və xilas yolları hər gün və hər gecə boş saxlanmalı və yanğın yüklərindən azad olmalıdırlar.

3. Tüstü sensoru və tüstü xəbərdalıq cihazı, yanğın söndürmə cihazları, yanğın xəbərdalıq avadanlıqları və başqa təhlükəsizlik cihazlarını götürmək yaxud zədələmək bütün sakilnər üçün ciddi bir hədələmə sayılır və yasaqdır.

4. Sakinlərin özlərinə aid isitmə və bişirmə cihazları otaqların içərisində işlədilməməlidir. Başqa elektrik cihazlarının otaqlarda işlədilməsi yalnız xidmət taminatçısına əvvəlcəndən xəbər verməklə mümkündür. Qaydaların pozuntusu halında, cihazlardan istifadə yasaqlana bilər. Portativ çoxsaylı ştepsel rozetkası və ya uzatma kabellərinin istifadəsi yasaqdır. Həmçinin hər cür açıq atəş.

5. Açıq pəncərə sıldırımlarına bir şey qoyula bilməz, çünki yıxılaraq kiməsə xəsarət yetirə bilər.

6. Sığınacaq, zirzəmin və həyət qapılarının hamısı saat 22.00-dan sonra bağlı saxlanmalıdır. Zirzəmin və pilləkanın pəncərələri həmişə bağlı saxlanmalıdır, əgər sığınacağın müdiriyyəti tərəfindən - xüsusən yoluxmadan qorunmaq üçün - başqa qanun keçirilməmişsə.

7. Dəhliz və pilləkən işıqlandırması qüsurludursa, qüsurlu işıqlandırma səbəbindən qəzalar baş verə biləcəyi üçün dərhal xidmət təminatçısına məlumat verilməlidir.

8. Təhlükəsizlik səbəblərə görə pilləkanda oynamaq yasaqdır. Uşaqlar bu məqsəd üçün hazırlanmış hissələrdə (oyun otağı və oyun yerləri, xarici sahələr) oynaya bilərlər.

9. Valideynlər öz uşaqlarına nəzarət etməyə məsuldurlar. Velideynlər, uşaqları daxili əsasnaməyə riayət etməyə görə məsuliyyət daşıyır.

10. Doldurulmuş informasiya vərəqləri **nadir halda davranış (əlavə I)**, **yanğın davranışı (əlavə II)**, **xəbərdarlıq planı (əlavə III)**, **çıxış və xilas planı (əlavə IV)** daxili əsasnamənin bir parçasıdır və hər sakin tərəfindən diqqətlə oxunmalıdır, xidmət təlimatçısı tərəfindən bisavadlara oxunmalıdır və xidmət təlimatçısı tərəfindən açıqlanmalıdır.

## Maddə 9 Məsuliyyət

1. Sakinlər özləri səbəb olan xəsarətlər üçün məsuldurlar və qanuni qaydalar əsasında məsuliyyət daşıyırlar. Bu qanuni müddəalar Alman Mülki Məcəlləsindən (BGB) götürülmüşdür.

2. Əgər sakilnlərin malları xidmət təminatçısı personalı yaxud əminiyyət məmurları tərəfindən xəsarət görürsə, bunlar məsuldur və qanuni qaydalar əsasında məsuliyyət daşıyırlar (BGB).

3. Sığınacağın açarı vəya transponder dəfələrlə itirildikdə ortaya çıxan xərclər sakinlərdən alına bilər.

## Maddə 10 Məsələr üçün əlaqədar tərəflər



.

Sakinlər, məsləhətlər, məsələlər yaxud şikayətləri ilə əlaqəli hər zaman aşağıdakı şəxslər və idarələrlə əlaqə saxlaya bilərlər:

- Sığınacaqda yaşamaqla əlaqəli məsləhətlər, məsələlər yaxud şikayətlər, sığınacaq müdiriyyəti və ya onun tərəfindən təyin edilmiş olan şəxsə gönderilə bilər.

- Sığınacaqdakı evin durumu ilə əlaqəli şikayətlər də sığınacaq müdiriyyətinə verilə bilər. Bundan əlavə, şikayətlər - həm də anonim olaraq - Qaçqınlar İşləri İdarəsinə (LAF) və işə başladıqdan sonra - Berlin Müstəqil Şikayətlər Bürosuna göndərilə bilər.

- Bölgədəki qaçqın koordinatorları, qaçqınlar üçün o cümlədən bölgə dəstək xidmətləri haqqında məlumat verir.

- İnteqrasiya və Miqrasiya Senatının komissarı, iqamət hüququ, ailənin birləşməsi, sığınacaq prosedurları, sosial yardımlar, mənzil və iş axtarma, gəlirli fəaliyyət, təhsil və qaçqınların qəbulu və inteqrasiyası ilə əlaqəli digər mövzularda hərtərəfli məlumat və tövsiyələr təqdim edir.

- Könüllü təşəbbüslər, məsələn, gündəlik həyatı idarə etmək, rəsmi orqanlara müraciət etmək, iş və mənzil tapmaq və digər məsələlərdə sadiq vətəndaşlar vasitəsi ilə qaçqınlara dəstək təklif edir.

Xidmət təminatçısı, əlaqəli əlaqə məlumatlarını sığınacaqda bütün sakinlər tərəfindən görünə bilən yerdə asır.

**Maddə 11 Daxili əsasnamə əleyhinə pozmalar və cinayətlər**

1. Bu daxili əsasnamə əleyhinə törədilən pozmalar, sığınacağa giriş yasağına və orada qalma haqqın əldən getməsinə səbəb ola bilər . Giriş yasağı yazılı olaraq bildirilməli və dəlilləri də açıqlanmalıdır. Sığınacağa giriş yasağının yazılı əmri ələqəli şəxə/şəxslərə veriləcəkdir.

2. Giriş yasağı bildirildikdə, LAF təfərindən müəyyən olunan hüquqi proseslərə riayət edilməlidir. Ümimiyyətdə sadəcə sığınacağın müdiriyyəti bir giriş yasağı elan edə bilər. İstisna hallarda (sakinlər yaxud personala qarşı təhlükə), həmçinin xüsusilə aşağıdakı 3. bənd pozulduqda, əmniyyət məmurlarının iş növbəsi rəisi də giriş yasağı elan edə bilər, əlbəttə əgər sığınacaq müdiriyyəti orada olmazsa və tez də çağırıla bilməzsə.
Bir giriş yasağı bildirildikdən öncə, ümumiyyətdə iki yazılı xəbərdarlıq gərəkdir. Yalnız üçüncü xəbərdarlıqla bir giriş yasağı bildirilə bilər. Bir giriş yasağı 3 aydan çox etibarlı deyil və yalnız indiki sığınacaq üçün etibarlıdır. Giriş yasağı bütün ailə üçün deyil.

3. Bu əsasnamənin qaydalarının özəlliklə ağır şəkildə pozulması hallarda, bir təcili giriş yasağı elan edilə bilər. Bir təcili giriş yasağından məqsəd xüsusilə obiri şəxsləri hücumlardan qorumaqdır, və aşağıdakı ciddi şəkildə yasaqlanmış davranışlar yaxud cinayətlər baş verirsə elan edilə bilər:

- Hər növ hədələmə (hətta şifahi)
- Hər növ şiddət (xüsusilə qadınlar, uşaqlar, dini azlıqların üzvləri və başqa qorunma haqqına sahib olan şəxslərə qarşı) yaxud hətta yalnız onunla hədələmək
- Silah qanunu ilə yasaqlanan silah və silaha bənzər əşyaların sahibliyi, yaxud bu silahların alış-verişi (onlara xüsusilə hər növ odlu silahlar aiddir, hətta müəyyən kəsən və soxulan silahlar). Bir şeyin yasaq silah olub olmadığı haqqında şübhə varsa, ən



.

yaxın polis mərkəzi məlumat verə bilər. Bu polis mərkəzinin yeri barədə, sığınacağın müdiriyyəti məlumat verə bilər.

- Sığınacaqda və açıq məkanlarda qeyri-qanuni narkotik maddələrin istifadəsi
- Hər növ "quldurluq", yəni başqa bir şəxsi birisi yaxud biriləri tərəfindən dəfələrlə və mütəmadi olaraq ruhi zorakılıq, əziyyət və xəsarətə məruz qoymaq.
- Polis tərəfindən müəyyən edilmiş cinayətlər. Polis yoxlamaları davam etdiyi müddətdə bir dərhal giriş yasağı yalnız sakinləri və ya sığınacağın əməkdaşlarını bir mümkün ola bilən təhlükədən qorumaq lazım olduqda caizdir.
- sığınacaqda törədilmiş ağır cinayətlər (məsələn cinsi zorakılı, təhlükəli bədən xəsarəti, od vurma)
- təkrarlanmış uyğunlaşdırma, əgər təkrar etmə təhlükəsi varsa, yaxud cinayətin ağırlığına görə xəsarət görmüş şəxsin birgə yaşamağa qadir olması gözlənə bilməzsə.

Giriş yasağının kənarında, ki nəticədə şəxs sığınacaqdakı yerini əldən verəcək, qeyri-qanuni silah yaxud narkotik maddələr sahibliyi həmçinin bu malların alış-verişi, həmçinin sığınacaqda ağır cinayətlər törətmək, həmçinin sakinlər yaxud personal qarşısında zorakılıqla daxili əsasnamənin qaydalarını pozmaq, rəsmi şikayət və məhkəmə prosesinə səbəb ola bilər.

4. Giriş yasağı almış sakinlər yeni sığınacaqda yer almaq üçün hara müraciət edəcəklərini öyrənmək üçün sığınacaq əməkdaşları ilə əlaqə saxlaya bilərlər.

5. Giriş yasağının tətbiq edilməsindən təsirlənənlər LAF-a və ya Berlin Müstəqil Şikayətlər Bürosuna (BuBs) şikayət edə bilərlər. Daha sonra LAF giriş yasağının haqlı olaraq qoyulduğunu və ya geri götürülməsini araşdıracaq.

## Maddə 12 Sığınacaqdan daşınmaq

1. Daşınma tarixi xidmət təminatçısı yaxud LAF tərəfindən müəyyən edilməmişsə, mümkün qədər tez, ən az 2 həftə öncə əlaqəli sakin şəxs tərəfindən sığınacağın müdiriyyətinə xəbər verilməlidir.

2. Daşınma zamanında sığınacağın açarı və sakinin şəxsiyyət vəsiqəsi dərhal geri qaytarılmalıdır.

3. Daşınma zamanında bütün ev ləvazimatları bütöv olaraq geri qaytarılmalıdır.

4. Daşınma zamanında sakinlər, onların tərəfindən yaxud onların istəyi üzərə sığınacaqda quraşdırılmış bütün cihazları - 3 cihazdan az deyilsə - özləri ilə aparmalıdırlar. Əşyalar geridə buraxılırsa, belə düşünüləcək ki bu əşyalar tullanıla bilər. Bu iş, sakinlərin xərci ilə həyata keçirilə bilər. Sakindən geridə buraxılmış sənədlər və qiymətli əşyalar, mal sahibi əldə edilə bilən deyilsə, xidmət təminatçısı tərəfindən müsadirə ediləcək. Tapılmış əşyalar haqqında qanuni qaydalar (BGB, maddə 965 və ardı) dəyişilməz qalır. Bu o deməkdir ki, geridə qalan sənədlər və qiymətli əşyalar altı ay saxlanacaq və xidmət təminatçısı bu barədə sahibini müəyyənləşdirməyə və bildirməyə çalışacaq. Bu müddət ərzində sahibinə geri qaytarmaq mümkün olmazsa, xidmət təminatçısı bu itirilmiş əşyaları məhv edə bilər.



.